# Azərbaycanlı dirijorun heyranedici yürüşü

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Əməkdar artist, beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyevin E.Svetlanov adına Rusiya Dövlət Akademik Simfonik Orkestri ilə Çin Xalq Respublikasında böyük konsert turnesi uğurla başa çatıb.**






Dekabrın son günlərindən başlanan səfər Çinin 13 müxtəlif iri şəhərini əhatə edib – Şanxay, Dalyan, Dunquan, Şenjen, Nannin, Çanşa, Çyujou, Nantun, Vusi, Vençjou, Fujou, Ksyaçen və Çunsin möhtəşəm iri teatrlarında gerçəkləşən konsertləri yerli dinləyicilər böyük maraqla qarşılayıblar. Yeni il bayramı ilə əlaqədar olaraq konsert proqramlarında Pyotr Çaykovskinin simfonik orkestr üçün yazdığı təntənəli əsərləri ("Şelkunçik" və "Yevgeni Onegindən" nümunələr, 5-ci simfoniya), Frans Zuppe və Yohann Ştrausun müxtəlif janrlarda yazdıqları parçalar yer alıb. Konsert proqramlarında böyük uğurla çıxış edən tanınmış yunan pianoçusu Teodosia Tokunun ifası sürəkli alqışlarla qarşılanıb. Hər çıxışın sonunda çinli dinləyicilərin böyük marağını və istəyini nəzərə alaraq Əyyub Quliyev və Rusiya Dövlət Simfonik Orkestri Çin klassik musiqisinin ən sevilən nümunələri sayılan "LiYuang River" təntənəli odası və "Spring Festival" Üverturasını ifa etmişlər. Proqramdan əlavə olaraq ifa olunan bu əsərlər ayaq üstündə alqışlanıb.

Qeyd etmək lazımdır ki, azərbaycanlı dirijor Əyyub Quliyevin Çinə səfəri ölkənin ən iri holdinqi sayılan və 70-ə yaxın teatr-konsert müəssisələrinə sahib olan "Poly", Yunanıstanın "Agitato" və Hollandın "TACT" agentliyi tərəfindın təşkil olunub. Qeyd etmək lazımdır ki, E.Svetlanov adına Rusiya Dövlət Simfonik Orkestri azərbaycanlı musiqisevərlər tərəfindən yaxşı tanınır - belə ki, kollektiv 2006-cı ildə Mstislav Rostropoviçin dirijorluğu ilə Bakıda keçirilən Şostakoviç Beynəlxalq Musiqi Festivalında çıxış edib.

***XQ***

Xalq qəzeti .- 2024.- 16 yanvar, № 008.- S.10.